

## Müstəqilliyin 20-ci ildönümü qeyd olundu

səh. 3

## "Dünyanı dəyişən müasir texnologiyalar"

səh. 2

## NANO Araşdırmalar Laboratoriyası açılıb

səh. 2



Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 12 (1420) 24 oktyabr 2011-ci il

## POÇT QUTUSU

səh. 2

## Nobel mükafatı laureatına BDU-nun fəxri doktoru adı verilib

səh. 2

## BUNDESTAQ ÜZVLƏRİ BDU-da

səh. 4

## Rektorun birinci kurslarla görüşü davam edir

səh. 4

## Tomson Reyters BDU-da treninq keçirib

səh. 4

## Almaniyalı qonaqlarla görüş keçirilib

**Tarix fakültəsində Almaniyanın Vilhelm və Aleksandr adına Humdold Universitetinin eyni fakültəsindən gələn tələbələrlə görüş keçirilib. Azərbaycanın yeni və müasir tarixi kafedrasının müdiri Azad Rzayev qonaqlara universitet haqqında məlumat verib.**

səh. 4

## Azərbaycanın milli parkları XXI əsrdə

səh. 6

**13-14 oktyabr Dağıstan Muxtar Respublikasının paytaxtı Mahaçqala şəhərində Avrasiya Universitetləri Həmkarlar İttifaqları Assosiasiyasının 24-cü qurultayı keçirilib.**

səh. 6

## Təbriklər

səh. 6

# Bakı Beynəlxalq Humanitar Forumunun nəticələri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



**Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində 2011-ci il oktyabrın 10-11-də Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir.** Forum multikulturalizmin nailiyyətləri və problemləri, dünyanı dəyişdirən müasir texnologiyalar, elmlərin konvergensiyası, biotexnologiyalar və etikanın problemləri, inkişafın iqtisadi modellərinin humanitar aspektləri, sosial jurnalistika və yüksək texnologiyalar, postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemləri kimi aktual mövzulara həsr olunmuşdur. Azərbaycan nümayəndələri ilə yanaşı dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli təmsilçiləri, o cümlədən tanınmış dövlət xadimlərinin, elmin müxtəlif sahələri üzrə Nobel mükafatçılarının və mötəbər beynəlxalq qurumların rəhbərləri bu məsələlər ətrafında geniş fikir mübadiləsi və müzakirələr aparmışlar. Qloballaşma dövrünün humanitar problemlərinə dair Forum iştirakçılarının mövqeyi qəbul olunmuş Bakı bəyannaməsində öz əksini tapmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və forum iştirakçılarının Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi təşkili ilə bağlı təkliflərini dəstəkləyərək qərara alıram:

1. Bakı Beynəlxalq Humanitar Forumunun müvəffəqiyyətlə keçirilməsini və beynəlxalq miqyasda qaldırdığı problemlərin aktuallığını nəzərə alaraq onun ənənəvi olaraq təşkil edilməsi zəruri sayılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi müvafiq qurumlarla, o cümlədən beynəlxalq təşkilatlarla birlikdə Bakı Beynəlxalq Humanitar Forumunun bəyannaməsində əksini tapmış müddəaların gerçəkləşdirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirsin.

3. Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sədrliyi ilə Təşkilat Komitəsi yaradılsın.

4. Bu Sərəncamın 3-cü hissəsində nəzərdə tutulmuş Təşkilat Komitəsinin fəaliyyətini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının dörd ştat vahidi hesabına Bakı Beynəlxalq Humanitar Forumunun Təşkilat Komitəsinin İşçi Qrupu yaradılsın.

5. "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 iyun tarixli 851 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 510, № 7, maddə 631; 2007, № 5, maddələr 501, 519, № 6, maddə 660, № 8, maddə 843, № 12, maddə 1287; 2010, № 2, maddə 80, № 4, maddə 345):

5.1. 1-ci hissədə "384" rəqəmi "388" rəqəmi ilə əvəz edilsin;

5.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının strukturu"nda "Humanitar siyasət məsələləri şöbəsi" hissəsində birinci halda "4" rəqəmi "8" rəqəmi ilə əvəz edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 oktyabr 2011-ci il.**

## İnsanlara humanist dəyərlər aşılayan bayram

səh. 5

## Prezident təqaüdçüsü

səh. 7

## Müstəqillik Günün mübarək, Vətən!

Artıq 20-ci ildir ki, Azərbaycan xalqı dövlət müstəqilliyi gününü qeyd edir.

səh. 7

## BDU kitabxanası - yeni nəşrlər

səh. 8

## İbrətamiz hekayə

*Pislik etməklə keçmişdi ömrü. Yaxşılıq nədir, bilməmişdi. İndi cəhənnəmin astanasında idi. Qapıda onu mələk qarşıladı. Mələk:*

səh. 8

# POÇT QUTUSU

## Bakı Dövlət Universitetinin rektoru akademik Abel Məhərrəmova

Hörmətli Abel müəllim!

2011/2012-ci tədris ili üçün respublikanın ali və orta ixtisas təhsili müəssisələrinə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilmiş qəbul kampaniyasına yekun vurulmuşdur.

Müstəqil respublikamızın inkişafı və tərəqqisi naminə bugünkü gənclərin sıralarından ən layiqlilərinin ali təhsilə yiyələnməsi dövlətimizin siyasətində mühüm, strateji əhəmiyyətli yer tutur. Bu işin bünövrəsində ali məktəblərə qəbul prosesi durur. Mərkəzləşdirilmiş şəkildə keçirilən, yüz mindən çox abituriyentin iştirak etdiyi qəbul imtahanları təşkilati cəhətdən olduqca mürəkkəb bir proses olaraq bir çox qurumların yüksək səviyyəli əlaqələndirilmiş işini tələb edir.

Qəbul imtahanları zamanı abituriyentlər üçün lazımi imtahan şəraitinin təşkil olunması olduqca böyük əhəmiyyətə malik olan məqamlardan biridir. Rəhbərlik etdiyiniz ali təhsil müəssisəsinin tədris binası müvafiq təlimata uyğun qaydada hazırlanaraq imtahanlar zamanı istifadə edilmiş, imtahanların normal səviyyədə keçirilməsi təmin edilmişdir.

Bununla əlaqədar olaraq, Sizə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası adından minnətdarlığımı bildirirəm.

Hörmətlə,

*TQDK sədri*
*Məleykə Abbaszadə*

# Nobel mükafatı laureatına BDU-nun fəxri doktoru adı verilib




Oktyabrın 10-da ABŞ-ın Kaliforniya Texnologiya İnstitutunun kimya və fizika üzrə professoru, dünya şöhrətli alim, kimya üzrə Nobel mükafatı laureatı, ABŞ prezidenti Barak Obamanın məsləhətçisi, ABŞ-ın Yaxın və Orta Şərqdə elm müşaviri Əhməd Həsən Zevayla universitetin fəxri doktoru adının verilməsi münasibətilə tədbir keçirilib.

*Çıxış edən rektor, akademik Abel Məhərrəmov qonaq haqqında ətraflı məlumat verib. Məlum olub ki, professor Əhməd Həsən Zevayl Misir əsilli Amerika kimyaçısıdır. O, 1946-cı il fevralın 26-da Misirdə, İsgəndəriyyə şəhərində doğulub. İsgəndəriyyə Universitetinin kimya üzrə bakalavr və magistr pillələrini bitirdikdən sonra təhsilini Amerikada davam etdirib. 1974-cü ildə Pensilvaniya Universitetində fəlsəfə doktoru elmi dərəcəsi alıb. 2 il Kaliforniya universitetində (Berkli) çalışıb. 1976-cı ildə Kaliforniya Texnologiya İnstitutunda işə qəbul edilib, 1982-ci ildən bu institutun professorudur. 1990-cı ildə həmin institutda*



*əvvəllər dünya şöhrətli alim Laynus Polinqin rəhbərlik etdiyi Kimyəvi fizika kafedrasının müdiri vəzifəsinə seçilib. Eyni zamanda Milli Elm Fondunun Molekulyar fizika laboratoriyasının rəhbəridir.*

Rektor professor Əhməd Zevaylın kimya və fizika sahəsində çoxşaxəli elmi fəaliyyətlə məşğul olduğunu, 1999-cu ildə "Femtosaniyələr texnikasından istifadə etməklə kimyəvi reaksiyalar zamanı yaranan keçid hallarının tədbiqi"nə görə kimya üzrə Nobel mükafatı laureatı adına layiq görüldüyünü diqqətə çatdırıb.

Şərqin ilk dünyəvi ali məktəbi olan Bakı Dövlət Universiteti haqqında da məlumat verən rektor universitetin 92 illik tarixi ərzində onun çox söhrətli məzunları, görkəmli alimləri, dünya səviyyəsində tanınan fəxri doktorlarının olduğunu diqqətə çatdırıb. Sonra Bakı Dövlət Universitetinin Elmi Şurasının 8 oktyabr 2011-ci il tarixli iclasının qərarını elan edib. Məlum olub ki, Əhməd Zevayl müasir dünyada elmin və demokratiyanın inkişafına verdiyi töhfələrə və sülh məramlı fəaliyyətinə görə Bakı Dövlət Universitetinin fəxri doktoru adına layiq görülür.

Bundan sonra Əhməd Zevayla fəxri doktor diplomu, mantiya və hədiyyələr təqdim olunub.

Çıxış edən Əhməd Zevayl BDU-nun fəxri doktoru olmasından məmnun olduğunu deyib. O, elm və təhsil, müsəlman ölkələrinin gələcəyi, demokratiya ilə bağlı fikirlərini bölüşüb, tələbələrin suallarını cavablandırıb.

**"XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilən Beynəlxalq Humanitar Forumunun "Dünyanı dəyişən müasir texnologiyalar" mövzusunda bölmə iclası Bakı Dövlət Universitetində keçirildi.**




# "Dünyanı dəyişən müasir texnologiyalar"

*İclas üç paneldən ibarət oldu. Tədbirin əvvəlində qonaqları salamlayan rektor, akademik Abel Məhərrəmov Bakıda keçirilən beynəlxalq tədbirin əhəmiyyətindən danışdı.*

Rektor XX əsrin sonu və XXI əsrin ilk onilliyində informasiya və kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrildiyini bildirdi.

*Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovniçi "Müasir texnologiyalar və qlobal fəlakətlər" mövzusunda məruzə ilə çıxış etdi.* Rusiyalı alim artıq qloballaşmaqda olan fəlakət mənbələrinin müəyyənləşdirilməsinin müasir səviyyədə təşkilindən danışdı. O, bu sahədə bir çox təcrübələrdən yararlanmaq və qabaqcıl texnologiyalardan istifadə etməklə müasir sivilizasiyanın fəlakətlərlə bağlı ən vacib qlobal problemlərini müəyyənləşdirmək və onların mümkün həlli yollarını tapmaq məsələləri barədə fikirlərini bölüşdü.

*"Qloballaşma dövründə elm və təhsilin inteqrasiya proseslərində müasir texnologiyaların rolu " adlı ikinci paneldə rektor, akademik Abel Məhərrəmov "İntensiv texnologiyaların sürətli artımı şəraitində elm və təhsilin balanslı inkişafı" mövzusunda məruzə etdi.* Rektor sürətli texnologiya, kompyuter və texnikanın inkişafının təkcə insan düşüncəsinə, psixologiyasına deyil, elm və təhsilə də təsir etdiyini vurğuladı.

A.Məhərrəmov ölkədə elm və təhsilin inkişafına göstərilən dövlət qayğısından danışdı, təhsil sisteminin beynəlxalq aləmə inteqrasiyası sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, ali məktəblərdə innovasiyaların, nanotexnologiyaların tətbiqi, texnoparkların yaradılması üçün irəli sürülən təşəbbüslər barədə də danışdı.

*Rumıniyadakı Qara dəniz Universitetlər Şəbəkəsinin ümumi katibi, texnika elmlər doktoru, professor Mahmut Eden Azərbaycana təkrar səfərindən məmnunluq ifadə etdi.* O, Bakı Beynəlxalq Humanitar Forumunun Azərbaycan və Rusiya Prezidentlərinin təşəbbüsü ilə həyata keçirildiyini xatırlatdı və buna görə də onlara təşəkkürünü bildirdi.



M.Eden elmin, təhsilin, texnologiyanın və texnikanın insan həyatının, yaşam tərzinin asanlaşmasına xidmət etməsi üçün bütün elm adamlarının bir araya gəlməsinin vacibliyini vurğuladı. O, Qobustan Milli Tarix-Bədii Qoruğuna səfərindən təsirləndiyini bildirdi.




Rumıniyalı qonaq bu qoruğun Azərbaycan tarixinin qədimliyini, ilkin insan məskənlərinin məhz planetin bu bölgəsində olduğunu sübut etdiyini bildirdi. M.Eden vurğuladı ki, qaya üzərindəki rəsmlər insanların çətinliklərə qarşı birgə mübarizə apardıqlarını sübut edir. Bugünkü ekoloji fəlakətlərə və bir çox problemlərə qarşı da məhz klassik ənənələrə sadiq qalaraq birlikdə mübarizə aparmaq vacibdir.

İclasın "Müasir texnologiyalar və davamlı inkişaf" adlı üçüncü panelini giriş sözü ilə açan Türkiyənin Bilkənd Universitetinin idarə heyətinin rəhbəri Əli Doğramacı humanitar məsələlərin müzakirə olunduğu forumun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi. Müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyini deyən natiq, bunun üçün yüksək peşəkarlığa sahib olan mütəxəssislərin hazırlanmasının əhəmiyyətini vurğuladı. O, müasir texnologiyaların elmə gətirdiyi yeniliklərdən, bu texnologiyaların insan həyatındakı davamlı inkişafından danışdı. Ə.Doğramacı müasir elmin və texnologiyanın, informasiya cəmiyyətinin bərqərar olması nəticəsində ortaya çıxan çoxsaylı humanitar problemlərin kompleks şəkildə araşdırılmasının zəruriliyini söylədi.

*AMEA-nın müxbir üzvü Rasim Əliquliyev rəhbərlik etdiyi İnformasiya Texnologiyaları İnstitutunun elmi-tədqiqat, tədris-innovasiya fəaliyyəti, eyni zamanda, internet və kompyuterin insan həyatındakı rolu haqqında ətraflı məlumat verdi.*

Direktor xarici ölkələrin informasiya-kommunikasiya texnologiyaları üzrə nüfuzlu universitetləri ilə aparılan bilik və təcrübə mübadiləsindən söhbət açdı.

İKT biliklərinin cəmiyyətə inteqrasiyasının günün tələbi olduğunu vurğulayan alim, Bakı Beynəlxalq Humanitar Forumunun innovativ biliklər əldə etməsinə xidmət etdiyini diqqətə çatdırdı.

*Türkiyənin Bilkənd Universitetinin Nanotexnoloji Araşdırmaları Mərkəzinin professoru Volkon Dəmir Hilmi alternativ enerji sahəsindəki təcrübələrdən və ixtiralardan danışdı.* Bildirdi ki, bu gün geniş işlədilən enerji növlərinin tükənəcəyi artıq bütün dünyanın alimlərini narahat edən bir məsələdir. Volkon Dəmir Hilmi təmsil etdiyi universitetin bir qrup gənc aliminin bu sahədəki araşdırması barədə ətraflı məlumat verdi.

İclas Azərbaycan, Türkiyə, ABŞ və Rusiya alimlərinin mövzu ilə bağlı məruzələri ətrafında maraqlı diskussiyalarla başa çatdı.

# NANO Araşdırmalar Laboratoriyası açılıb

Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun "Dünyanı dəyişdirən müasir texnologiyalar" mövzusunda Bakı Dövlət Universitetində keçirilən seksiya iclaslarında Nano Araşdırmalar Laboratoriyasının açılışı olub. Açılış mərasimində rektor, akademik Abel Məhərrəmov, Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi, həmin universitetin kimya fakültəsinin dekanı, akademik Lunin, MDB-nin Nanotexnologiya üzrə İnnovasiya Mərkəzinin direktoru Ruzayev, Rumıniyanın Ovidus Universitetinin professoru Eden Mamut, Bilkənd Universitetinin prezidenti, professor Əli Doğramacı, ABŞ-ın Delaver Universitetinin professoru İsmat Shah və başqaları iştirak edirlər.



Mərasimdə iştirak edənlərin diqqətinə çatdırılıb ki, nanomateriallar və nanotexnologiyalar üzrə elmi araşdırmaların hazırda dünyanın elm sahəsində prioritet istiqamət olduğunu nəzərə alaraq, kimya, fizika, biologiya, tətbiqi riyaziyyat və kibernetika fakültələrinin bazasında 2005-ci il tarixində Nano Araşdırmalar Mərkəzi və Nanomaterialların kimyəvi fizikası kafedrası açılıb. Elə o vaxtdan da nanotexnologiyalar istiqamətində kadr hazırlığı və tədqiqat işləri aparılır. Son 5 ildə bu istiqamətdə aparılan tədqiqat işlərinin nəticələri 60-dan artıq nüfuzlu jurnalda məqalələr şəklində dərc edilib.

Laboratoriya çox yüksək ayırdetmə qabiliyyətinə malik atom qüvvə və tunel mikroskopu, Furye spektrometri, spektroflüorimetr, spektofotometr, böyük ayırdetmə qabiliyyətinə malik müasir optik mikroskop, qamma spektrometri və sair qiymətli cihazlarla təchiz edilib.

Laboratoriyanın müdiri professor Məhəmmədəli Ramazanovdur.

Səhifəni təqdim etdi: **Mətbuat və İnformasiya şöbəsi**





# Müstəqilliyin 20-ci ildönümü qeyd olunub

Bakı Dövlət Universitetində Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin 20-ci ildönümü münasibətilə elmi-praktik konfrans keçirilib. *Konfransı giriş sözü ilə rektor, akademik Abel Məhərrəmov açıb.* Rektor deyib ki, Azərbaycan xalqı əsrlər boyu azadlığa qovuşmaq, müstəqil dövlət qurmaq uğrunda daim mübarizə aparıb, yalnız ötən əsrin sonlarında yenidən bu arzusuna qovuşub. Xalqın qəlbində əsrlər boyu silinməz iz salmış, onu mübarizə ruhunda kökləmiş milli dövlətçilik idealının gerçəkliyə qovuşması isə, ilk növbədə, milli lider amili ilə şərtlənmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev müdrik lider kimi xalqı tarixən can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Biz xoşbəxt xalqıq ki, ümummilli liderimiz var. Xalq o vaxt da xoşbəxtdir ki, ümummilli liderin siyasi kursu ölkədə uğurla davam edir. Abel Məhərrəmov Azərbaycanın qonşu ölkələrə nisbətən xeyli çətin iqtisadi və siyasi problemlərlə müstəqilliyə qovuşmasından, Azərbaycanın regionun aparıcı dövlətinə çevrilməsindən, müstəqil və inkişaf edən dövlət kimi dünyanın diqqət mərkəzində olmasından, idman sahəsində, incəsənətdə, o cümlədən "Eurovision" yarışmasında qazanılan uğurların Azərbaycan xalqının istedadlı olduğunu dünyaya nümayiş etdirməsindən danışıb, təhsil və elmdə qazanılan uğurlara toxunaraq bütün bu nailiyyətlərdə prezident İlham Əliyevin xidmətlərini xüsusi qeyd edib. *Sonra kafedra müdiri, millət vəkili, professor Rəbiyyət Aslanovanın məruzəsi dinlənilib. Kafedra müdirləri, akademik Vasim Məmmədəliyev və professor İzzət Rüstəmovun da çıxışları maraqla qarşılanıb. Elmi-praktik konfransda vitse-spiker Ziyafət Əsgərov, Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev, YAP Yasamal rayon təşkilatının sədri Fikrət İsmayılov da iştirak ediblər.*





Tədbir bədii hissə ilə davam edib.

**Mətbuat xidməti**

# "Müstəqillik illəri və ekoloji problemlərin həlli"



Oktyabrın 13-də Universitetdə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə Ekologiya və təbii sərvətlər nazirliyi ilə birlikdə "Müstəqillik illəri və ekoloji problemlərin həlli" mövzusunda dəyirmi masa keçirilib. *Dəyirmi masada rektor, akademik Abel Məhərrəmov, Ekologiya və təbii sərvətlər naziri professor Hüseyn Bağırov, nazirliyin əməkdaşları, Ekologiya və torpaqşünaslıq, biologiya, kimya, coğrafiya və geologiya fakültələrinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.* Dəyirmi masanı giriş sözü ilə rektor, akademik Abel Məhərrəmov açaraq Azərbaycanın müstəqilliyinin bərpa edilməsindən ötən 20 il ərzində əldə olunan nailiyyətlərdən, dövlət müstəqilliyimizin bərpasının ilk illərində qarşılaşdığımız problemlərdən danışaraq azadlığa, müstəqilliyə gedən yolun heç də asan olmadığını qeyd edib. Daha sonra rektor dünyada və Azərbaycanda mövcud olan ekoloji problemlərdən, bu problemlərin həll edilməsi məqsədi ilə müstəqillik illərində dövlət səviyyəsində və universitetdə həyata keçirilən tədbirlərdən danışıb.

Sonra Ekologiya və təbii sərvətlər naziri, professor Hüseyn Bağırov "Müstəqillik illərində ekoloji problemlərin həlli: görülmüş işlər və gələcək addımlar" mövzusunda məruzə ilə çıxış edib. Nazir Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə davamlı inkişafa əsaslanan ekoloji siyasətin yürüdüldüyü, ölkə rəhbərliyinin həyata keçirdiyi tədbirlər nəticəsində ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi sahəsində görülmüş işlərdən danışıb.

Nazir Azərbaycanın zəngin təbiətini, təbii sərvətlərini qorumaq və bərpa etmək istiqamətində başlanmış işlərin uğurla davam etdirildiyini, bu istiqamətdə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni layihələrin həyata keçirildiyini, ekoloji problemlərin həllinə cəmiyyətin, yerli və beynəlxalq təşkilatların da cəlb olunmaqla dövlətin müəyyənləşdirdiyi ekoloji siyasətin reallaşdırıldığını qeyd edib.

Məruzə ətrafında müzakirələr aparılıb, müəllim və tələbələrin çoxsaylı suallarına cavab verilib. Tədbirin sonunda təhsildə fərqlənən və ekoloji biliklərin yayılmasında və təbliğində fəallıq göstərən bir qrup tələbəyə Ekologiya və təbii sərvətlər nazirliyinin Fəxri Fərmanları və pul mükafatları verilib.



Sonra dəyirmi masa iştirakçıları Nano Araşdırmalar Laboratoriyası ilə tanış olublar. Laboratoriyanın müdiri, professor Məhəmmədəli Ramazanov Bakı Dövlət Universitetində Ukrayna Elm və Texnologiya mərkəzinin koordinasiyası və Kanada dövlətinin maliyyə dəstəyi ilə 3998 saylı qrant layihəsi çərçivəsində "Abşeron yarımadası və Bakı şəhəri ətraf ərazilərinin radioekoloji tədqiqi" ilə tədqiqat işlərinin aparılması haqqında məlumat verib. Qeyd edib ki, hazırda istər bütün Dünyada, istərsə də Azərbaycan ərazisinin bir hissəsi olan Abşeron yarımadasında texnogen və təbii proseslərin təsiri nəticəsində radioekoloji durum getdikcə mürəkkəbləşməkdədir. Bu prosesə təsir göstərən həlledici amillərdən biri də ətraf mühitin radioaktiv şüalanma mənbələri ilə çirklənməsidir. Bu baxımdan Abşeron yarımadasının Bakı ətrafı ərazilərində radioekoloji tədqiqatların aparılması olduqca əhəmiyyətli bir məsələdir. BDU-da bu istiqamətdə layihə çərçivəsində Abşeron yarımadası və Bakı şəhəri ətrafı zonalarda radiasiya fonunun qiymətləndirilməsi və onu yaradan mənbələrin aşkarlanması istiqamətində uğurlu tədqiqat işləri aparılır.

**"Bakı Universiteti"**

## Ekologiya və torpaqşünaslıq fakültəsində konfrans

Oktyabrın 14-də Ekologiya və torpaqşünaslıq fakültəsində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci illiyinə həsr edilmiş "Tətbiqi ekologiyanın problemləri" mövzusunda elmi-metodik konfrans keçirilib. Konfransı giriş sözü ilə açan Elm və innovasiyalar üzrə prorektor, professor Aydın Kazımzadə respublikamızın müstəqilliyini əldə etməsindən sonra dövlətin ekoloji problemlərə daha böyük diqqət və qayğı göstərdiyini bildirib. Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva isə dünyanın, xüsusilə də Azərbaycanın qarşılaşdığı ekoloji problemlərdən danışıb. Daha sonra Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı, dosent Nazim Şəmilovun sədrliyi ilə davam edən konfransda coğrafi ekologiya kafedrasının müdiri, professor Şövqü Göyçaylı danışıb. Professor son zamanlarda ekologiyanın Azərbaycanda artıq bir elm kimi formalaşdığını deyib və respublikanın elmi-metodik mərkəzi kimi tanınan BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin gördüyü işlərdən söhbət açıb. Professor Rövşən Xəlilov isə "Radioekoloji problemlər" mövzusunda məruzə edib və problemin Azərbaycandakı miqyası haqqında danışıb. Konfrans öz işini bölmələr üzrə davam etdirib.



Özünü fəth etməyi bacar!
Bakı Universiteti

# Bundestaq üzvləri BDU-da



**Oktyabrın 7-də rektor, akademik Abel Məhərrəmov Alman Bundestaqının "Beynəlxalq Parlament Təqaüdü (İPS)" proqramı üçün iştirakçıları seçmək məqsədilə Bakıda səfərdə olan Almaniya parlamentinin üzvü Şteffen-Klaudio Lemmenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Rektor universitet haqqında qonaqlara ətraflı məlumat verib. Almaniya parlamentinin üzvü Şteffen Klaudio Lemme "Beynəlxalq Parlament Təqaüdü (İPS)" proqramı haqqında danışıb. Onun sözlərindən məlum olub ki, Azərbaycandan olan 5 nəfər ali məktəb məzunu hər hansı bir Bundestaq deputatının yanında bir neçə ay fəaliyyət göstərəcək və bu da onlara qərar qəbulu proseslərini intensiv şəkildə izləmək imkanı verəcək. Deputat onu da bildirib ki, proqram iştirakçılarının Berlin universitetlərində təhsil almaq şansları da olacaq. Qeyd edək ki, bu proqramda hər il 28 ölkədən 120 nəfər iştirak edir.**

Adıçəkilən proqrama dəyər verdiyini söyləyən akademik Abel Məhərrəmov bildirib ki, tələbələrin parlamentdə təhsil keçmələri və düşüncələrinin bir müstəviyə gətirilməsi qloballaşan dünyada əsas məsələlərdən biridir. Rektor, Azərbaycandan seçilən tələbələrin Almaniya parlamentində təcrübə keçib həmin təcrübəni Azərbaycana gətirəcəklərinə əmin olduğunu vurğulayıb.

Berlin Açıq Universitetinin Prorektoru və Fiziki Coğrafiya kafedrasının professoru xanım Briqitta Schutt təmsil etdiyi universitetdə Xəzər dənizi üzrə tədqiqat mərkəzinin olduğunu və gələcəkdə Bakı Dövlət Universiteti ilə əməkdaşlıq memorandumunun imzalanmasında maraqlı olduqlarını bildirib.

# Tomson Reyters BDU-da treninq keçirib

Oktyabrın 6-da Tomson Reyters (Thomson Reuters) Agentliyi onun tərəfindən hazırlanmış Web Knowledge proqramından istifadə üzrə treninq keçirib. Tədbiri Tomson Reyters Agentliyin Mərkəzi və Şərqi Avropa üzrə ölkə meneceri Metin Tunc keçirib. Treninqin əvvəlində BDU-nun Elm və innovasiyalar üzrə prorektoru, professor Aydın Kazımzadə çıxış edərək, BDU-nun respublika elmi potensialının hiss olunacaq dərəcədə əhəmiyyətli hissəsini əhatə etdiyini bildirib, Azərbaycan alimlərinin, o cümlədən BDU alimlərinin əsərlərinin dünya şöhrətli Tomson Reyters Agentliyinin siyahısında yer almasını, uğurla çap olunmasını vurğulayıb. Qeyd edək ki, Tomson Reyters Agentliyinin məlumat bazasında 12 min akademik və elmi jurnal, 148 min konfrans və s. haqqında məlumat var. Agentliyin müəyyənləşdirdiyi indeksli jurnallarda BDU alimlərinin əsərlərinin sayı ildən-ilə artır və yüksək göstəricilər qazanır. Treninqdə həmçinin BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, professor İradə Əliyeva, Xarici tələbələrlə iş üzrə dekan Gülheyran Rəhimova da iştirak ediblər.



# Rektorun birinci kurslarla görüşü davam edir

Oktyabrın 6-da rektor, akademik Abel Məhərrəmov Sosial Elmlər və psixologiya, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin birinci kurs tələbələri ilə görüş keçirib. Rektor Abel Məhərrəmov birinciləri tələbə adı qazanmaları münasibətilə təbrik edib, onlara universitetin tarixi, inkişaf mərhələləri barədə məlumat verib. Ümummilli lider Heydər Əliyevin məzunu olduğu universitetdə oxumağın böyük şərəf, həm də məsuliyyət olduğunu söyləyən akademik A.Məhərrəmov bildirib ki, universitet yetkin bir insanın təhsil aldığı müəssisədir və burada yalnız oxuyub, seçdiyin ixtisasın peşəkarı olmağa çalışmaq lazımdır. Rektor bu günlərdə BDU-nun dünyanın 700 ən yaxşı universiteti siyahısına daxil olduğunu deyib. Eyni zamanda, tələbələri ingilis dilini öyrənməyə, informasiya-kommunikasiya texnologiyalarına mükəmməl şəkildə yiyələnməyə çağırıb.

# 13-14 oktyabr Dağıstan Muxtar Respublikasının paytaxtı Mahaçqala şəhərində Avrasiya Universitetləri Həmkarlar İttifaqları Assosiasiyasının 24-cü qurultayı keçirilib.

**Qurultayı assosiasiyanın prezidenti, Moskva Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, professor İqor Kotlobovski açıb. Qurultayın işində Dağıstan Dövlət Universitetinin (DDU) rektoru Murtuzəli Rabadanov, Dağıstan hökumətinin sədri Məhəmməd Abdullayev, Dağıstan Həmkarlar İttifaqları Komitəsinin sədri Abdulla Məhəmmədov və digər rəsmi qonaqlar iştirak ediblər.**

Qurultayda müzakirə olunan əsas məsələ elm və təhsilin millətlərarası münaqişələrin və terrorizmin həllində rolu ilə bağlı olub.

Qurultayın işində Azərbaycan tərəfindən yalnız Bakı Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Fikrət Şiriyev iştirak edib. Avrasiya Universitetlərinin Həmkarlar İttifaqı Assosiasiyasının İdarə Heyətinin üzvü F.Şiriyev plenar iclasın əvvəlində "Avrasiya məkanında etnik qruplar, xalqlar və dinlərarası münaqişələrin aradan qaldırılmasında cəmiyyətin maarifləndirilmə prosesinin moderatoru olan ziyalıların rolu" məruzəsi ilə çıxış edib. Qurultay iştirakçıları tərəfindən böyük maraqla dinlənilən məruzəyə sonrakı çıxışlarda bir neçə dəfə istinad olunub.

Səfər çərçivəsində Fikrət Şiriyev Dağıstan Dövlət Universitetinin 80 illiyi münasibətilə Mahaçqalanın Rus Dram Teatrında keçirilən təntənəli tədbirdə iştirak edib. Tədbirə Dağıstan Respublikasının prezidenti Məhəmmədsalam Məhəmmədov və digər dövlət rəsmiləri də qatılıb.

Tədbiri giriş sözü ilə açan DDU-nun rektoru qonaqları və universitetin professor-müəllim heyətini salamladıqdan sonra Prezident çıxış edib. O, öz təbrik nitqində universitetin Dağıstan xalqlarının həyatında oynadığı mühüm və çox əhəmiyyətli rol haqqında geniş danışıb.

Bir qrup əməkdaşa yüksək fəxri dövlət mükafatları təqdim edildikdən sonra təbrik üçün qonşu dövlətlərdən dəvət olunan qonaqlara söz verilib.

BDU-nun rektoru, akademik Abel Məhərrəmov adından təbrik nitqi ilə çıxış edən HİK sədri, dosent Fikrət Şiriyev universitetlərin cəmiyyət həyatında oynadığı roldan, DDU ilə BDU arasında əlaqələrin möhkəmlənməsindən və xalqlar arasında münasibətlərin daha da yaxşılaşmasında dövlət başçılarının əvəzsiz xidmətlərindən danışıb. F.Şiriyev qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin BDU haqqında dediyi xoş sözləri müəyyən mənada DDU-ya da aid etmək olar: "Dağıstan Dövlət Universiteti Dağıstan xalqlarının milli sərvətidir. Bu sərvətə hələ uzu onilliklər xalqa şərəflə xidmət etməyi arzulayıram".

# Almaniyalı qonaqlarla görüş keçirilib

**Tarix fakültəsində Almaniyanın Vilhelm və Aleksandr adına Humdold Universitetinin eyni fakültəsindən gələn tələbələrlə görüş keçirilib. Azərbaycanın yeni və müasir tarixi kafedrasının müdiri Azad Rzayev qonaqlara universitet haqqında məlumat verib. Bildirib ki, Bakı Dövlət Universiteti beynəlxalq əlaqələrə böyük önəm verir və beynəlxalq arenada nüfuzunu artırmaq üçün belə görüşlərin tez-tez keçirilməsinin tərəfdarıdır. Kafedra müdiri rəhbərlik etdiyi kafedranın daha da təkmilləşməsindən danışıb. Kafedranın bir hissəsinin də Berlində yerləşdiyini deyən Azad Rzayev "biz bir kafedranın iki üzvüyük", - deyə fikirlərini bitirib.**

Almaniya nümayəndə heyətinin rəhbəri, Berlində yerləşən Humdold Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, professor, doktor Auch Eva-Maria görüşdən məmnun olduğunu, Bakı Dövlət Universiteti kimi ali təhsil ocağı ilə əməkdaşlığa önəm verdiklərini qeyd edib. Sonra qonaqlar fakültə ilə yaxından tanış olublar. Qarşılıqlı maraq doğuran görüşdə Gənclər və İdman Nazirliyinin Elm və təhsil şöbəsinin müdiri Vüqar Əhmədov, aparıcı məsləhətçisi Fuad Ələkbərov da iştirak ediblər.

Qonaqlar universitetdən xoş təəssüratlarla ayrılıblar.



# BİRİNCİ KOREYA DİLİ MÜSABİQƏSİ KEÇİRİLİB

Oktyabrın 7-də universitetin və Azərbaycan Dillər Universitetinin tələbələrinin iştirak etdiyi Birinci koreya dili müsabiqəsi keçirilib. Çıxış edən Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Li Ci Ha Azərbaycanda koreya dilinə marağın artdığını, bu dilin ölkənin bir sıra universitetlərində tədris olunduğunu bildirib. Hazırda Koreya ali təhsil müəssisələrində 70-ə qədər Azərbaycan vətəndaşının təhsil aldığını deyən səfir ölkəsinin Azərbaycandan olan tələbələrin sayının çoxalmasında maraqlı olduğunu bildirib.

Müsabiqə iki nominasiya üzrə keçirilib: yazı və danışıq.

Tədbirdə BDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Şəlalə Məmmədova iştirak edib.

## "ELSEVİER" məlumat bazası

Oktyabrın 20-də "Elektron Resursların İşlənməsi" mövzusunda "Elsevier" məlumat bazasının təqdimatı və bu bazadan istifadə qaydalarına həsr olunmuş treninq-seminar keçirilib. Seminarda BDU-nun professor-müəllim heyəti, elmi işçilər və digər ali məktəblərin nümayəndələri iştirak edib. Seminarda Sherif El Shamy- Africa, Orta Şərq, Türkiyə və Mərkəzi Asiya üzrə Elsevier-in satış meneceri, Olivier Diesnis - Elsever-in elektron kitabları üzrə satış meneceri və Ayhan Akanay Saracoglu- Elsevier-in Türkiyə və Mərkəzi Asiya üzrə meneceri məruzələrlə çıxış ediblər.

# İnsanlara humanist dəyərlər aşılayan bayram

Dünyada bayramı olmayan xalq yoxdur. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, hər bir xalqın mərasim folklorunun bəzəyi bayramlardır. Onlar dünya xalqlarını bir-birinə yaxınlaşdıran və qovuşduran mədəni dəyərlər məcmusudur. Bayramlar xalqların ən yüksək mənəvi-əxlaqi dəyərlərini, etik-estetik görüşlərini, bəşəri duyğularını və humanist baxışlarını özündə əks etdirməklə müxtəlif adətlər, ənənələr, rituallar və nəğmələrlə zəngin olub, qüdrətli nüfuzedicilik, tərbiyəviçilik, mənəvi saflığa və kamilliyə səfərbəredicilik gücünə malikdir. Ən qədimdən dünyanın bayramsevər xalqlarından biri kimi tanınan azərbaycanlılar öz tarixi törəniş və yüksəliş mərhələlərində müxtəlif mövzulu və məzmunlu bayramlar yaratmış, uzun yüzilliklər ərzində onları məişətlərində qoruyub saxlamış və bir çoxunu yeni-yeni dəyərlərlə cilalayaraq yetkinləşdirmiş, müəyyən qismini isə yeniləri ilə əvəzləyərək yaddaşlara həkk edə bilmişdir. Bunların sırası geniş olduğu kimi, çeşidi də müxtəlif və rəngarəngdir.

Uzun yüzilliklərdən bəri Azərbaycan xalqının yaddaşında yaşadıb saxladığı, hər il özünün müqəddəs Həcc ziyarəti, ibrətamiz mərasimləri və ritualları ilə təntənəli şəkildə keçirdiyi belə böyük bayramlardan biri də Qurban bayramıdır. Tədqiqatçılar onu ölkəmizdə çox uzaq çağlardan keçirilən dini bayramlar silsiləsinə daxil edirlər.

Tarixən xalqımızın Allah etiqadı və sevgisi ilə bağlı görüşlərlə əlaqələndirilən bayramlarından biri kimi tanınan bu bayramın üzərinə sovetlər dönəmində qoyulan yasaq və qadağalar onun unudulub yaddan çıxarılmasına yönəlsə də, xalq onu el arasında ən əziz bayramlarından biri kimi qoruyub saxlayaraq günümüzə qədər yaşada bilmişdir.

Müstəqilliyimizin bərpasından sonra ulu öndər Heydər Əliyevin 1993-cü il tarixli sərəncamı ilə bir sıra başqa xalq bayramları kimi, onun üzərindən də bütün yasaq və qadağalar götürülmüş, bu bayram da ölkəmizdə ümumxalq bayramlarından biri kimi dövlət səviyyəsində qeyd edilməyə başlamışdır.

Qurban bayramı inancları bütövlükdə böyük Allahın adı ilə bağlı yaranan, ona tapınma və sığınma etiqad silsiləsini insan övladına bəxş etdiyi xoşbəxtlik təntənəsinin ifadəsi kimi ibrətamiz həqiqətlərə söykənir, Ərzi doğruçuluğa, sədaqətə, əhdə, vəfaya, ədalətə və rəhmə səsləyir. Onun çoxsaylı dəyərləri içərisində insan övladının qurban kəsilməsinin yasaqlanması qüdrətin yüksək, uca və ali dəyərlərinin yenilməz zirvəsi kimi çox-çox uzaq zamanlardan bərq vuraraq bəşərin yolunu nurlandırmaqdadır.

Məlumdur ki, müəyyən tarixi zaman və məkan daxilində baş verən İsmayıl həqiqəti Böyük yaradanın qüdrətinə ilk inam gətirənlərdən biri olan İbrahim (Avraam) peyğəmbər əleyhisəlamın (ruhu şad olsun) həyatından götürülmüş tərcümeyi-hal faktıdır. Peyğəmbər özünün ahıl yaşına gəlib çatmışdı, ancaq oğul övladı həsrəti qəlbini yandırıb-yaxmaqda idi. Bu barədə dünya xalqları içərisində çoxsaylı rəvayət və əfsanələr yayılmışdır. Xalqımız tərəfindən yaranmış və vaxtilə tərəfimizdən Naxçıvan ərazisindən yazıya alınmış əfsanədə deyilir: "Bir gün İbrahim peyğəmbər Sübh namazına dəstəmaz alıb namazını qılandan sonra üzünü Rəbbin dərgahına tutaraq dedi:

- Ya Rəbbim, üzümü ucalardan uca dərgahına tutaraq ulu diləyimi cənabımıza ərz edirəm ki, bu ahıl yaşımda mənim qəmli halıma, ürəyimdə illərlə gəzdirdiyim, bir kimsəyə bəyan edə bilmədiyim dərdimə, bir də vəfalı Saramın gecə-gündüz axıtdığı qanlı göz yaşlarına rəhm edib bizə bir oğul övladı payı verəsən, əhd edirəm ki, bu övladım 14 yaşına çatanda onu dərgahına gətirib öz əlimlə sənin yolunda qurban kəsəcəyəm.

Bu əhvalatdan 9 ay, 9 gün, 9 saat keçəndən sonra İbrahim peyğəmbər əleyhisəlamın əprimiş Saradan gözəl-göyçək bir oğul övladı dünyaya gəldi. Sara onun adını İsmayıl qoydu.

İllər gəlib keçdi, İsmayıl 14 yaşına çatdı. İbrahim peyğəmbər əhdini unutdu. Həzrət Cəbrayıl İsmayıla göylərdən vəhy gətirdi, bu barədə peyğəmbərə danışdı və onu vədini yerinə yetirməyə çağırdı.

Peyğəmbər əhdini unutduğuna görə bir neçə gün özünü döyüb ağladı. Güman etdi ki, İsmayılın bağışlanması barədə ona vəhy gələcək, gəlməyəndə xatırladı ki, əhdi pozmağı, vədə xilaf çıxmağı Rəbbi ən böyük günah hesab etmişdir. Özünə toxtaq verib günahını yumağa hazırlaşdı. Peyğəmbər ilk əvvəl İsmayıl üçün ulu toy çağırdı, qırmızı libas geydirib oğlunu taxtda əyləşdirdi. Bütün oba İsmayılın ulu toyuna təşrif gətirdi. Hamı onun taxta çıxmasını alqışladı. Sonra peyğəmbər İsmayıla bir neçə dəst ağ və qırmızı libas alıb Mina dağına yola düşdü. "Yol xarabalıqdır," - deyə altdan-üstdən yaraqlandı, özünə qılınc-qalxan götürdü. İsmayılı atının tərkinə alıb vədini yerinə yetirməyə yollandı. Sara soruşdu:

- İsmayılı hara aparırsan?

Peyğəmbər dedi:

- Minaya "ibadət"ə gedirik.

Sara haray-həşir qopardı:

- Ya İbrahim, bəs bu yaraq-yasaq nədir vurmusan belinə?

Peyğəmbər cavab verdi:

- Minanın yolu bədəvi quldurlarla doludur. Yaraqlar özümüzü qorumaq üçündür.

İbrahim peyğəmbər Mina dağına yetən kimi axtarıb bir palıd ağacı tapdı. Onun yoğun bir budağını kəsib kötüklədi. Sonra onu hamarladı. İsmayıla təzə ağ libaslarından birini geyindirdi.

Peyğəmbər dili dolaşa-dolaşa, əli əsə-əsə İsmayılın gözlərini bağladı. Onu oxşayıb ağladı, sonra ehmalca uşağın başını kötüyün üstündə rahatladı. Ancaq qılıncı uşağın boynuna vurmağa əli qalxmadı. Birdən İsmayıln gur səsini eşitdi:

- Tələs, ata! Allah qarşısında əhdini yerinə yetirməyə ləngimə!

Peyğəmbər özündə güc tapıb qılıncını çəkdi ki, əhdini yerinə yetirsin. Ancaq əli əsdi, qılınc əlindən yerə düşdü. İkinci dəfə qılıncı çəkəndə də qılıncı əlində saxlaya bilmədi, qılınc ovcunda fırlanıb taxtaya çevrildi. Qaibanədən Həzrət Cəbrayılın səsi eşidildi:

- Ya Peyğəmbər, İsmayılın gözlərini açıb ayağa qaldır, ağ libasını çıxar, qırmızısını geyindir. Allah-taalanın göndərdiyi qara qoçu qurban kəs, Rəbbim insan qurbanlığını yasaqladı. O kəsdiyin qurbanın ətindən özün yemə, yeddi naümidin qapısına qurban payı göndər, qalanını da bədəvilər arasında bərabər bölüşdür.

Bununla da o gündən etibarən insanın qurban kəsilməsinə son qoyuldu. Bayramın bir çox adət-ənənə və mərasimləri onun başlıca simvolu olan qurbankəsmə çevrəsində cəmləşdi.

İbrahim peyğəmbər səlavatüllahın Allaha etiqadı və əhdinə sədaqəti təkcə İsmayılı iti qılıncın tiyəsindən xilas etmədi, yer üzünün əşrəfi olan insan qurbanlığını aradan qaldırdı, bəşər övladına yeni münasibət formalaşdırdı.

İsmayıl isə Allahın evi olan Kəbənin baş mühafizi oldu. Müqəddəs və gözəl Kəbəni dünya müsəlmanlarının ulu səcdəgahına çevirdi".

Qədim təqvim görüşlərinə əsasən hər il yerini dəyişib başqa aya düşən Qurban bayramının silsilə ayin və mərasimləri yarandı. Onlar bu gün xalqlar içərisində Allaha inamın ifadəsi kimi davam etməkdə, yeni-yeni ənənələr, görüş və etiqadlarla zənginləşməkdədir.

Hər il bayram ərəfəsində yüz minlərlə mömin insanlar, həmvətənlərimizin bir çoxu Kəbəyə Həcc ziyarətinə gedib müqəddəs ocaqda qurbanlarını kəsir, şərin rəmzi hesab etdikləri Şeytana daş atır, başqa böyük bir qismi isə öz yurdunda, ocağında xalqımızın işıqlı sabahı üçün etdiyi dualarla Qurban bayramı mərasimlərini davam etdirirlər.

Bütövlükdə isə insanlar arasında rəhmə, dostluğa, qarşılıqlı anlaşmaya, insan şəxsiyyətinə ehtirama, bəşər övladına, ilahi vergiyə çağırışlarla dolu olan bayram idealları hər cür ayrıseçkiliklərə, ədalətsizliklərə, qanlı müharibələrə və terrorlara qarşı olub sağlam düşüncəyə, rəhmə və xeyirə söykənən, insanlara humanist dəyərlər aşılayan bayramlardan biridir.

Üzümüzə gələn Qurban bayramı münasibətilə bütün həmvətənlərimizi, sabahkı xoşbəxt həyatımızın böyük qurucuları olacaq gənclərimizi, çoxsaylı və doğma universitet kollektivinin bütün üzvlərini təbrik edirəm.

Bayram ayında verdiyiniz nəzir-niyazları və kəsdiyiniz İsmayıl qurbanlıqlarını Allah qəbul eləsin!

**Azad NƏBİYEV,**
**professor,**
**kafedra müdiri**



## Tələbəlik illəri

**Ziyalıların yolu ali məktəbdən keçir. Tələbəlik dövrü gəncliyin, ümumən insan ömrünün heç zaman solmayan şən illəri, ayları, günləri olur, xəyalda dərin izlər buraxır, heç vaxt yaddan çıxmır. Tələbəliyin çətin anları da olur. Ancaq bu anlar coşqun tələbə həyatında görünməz olur. Hər bir tələbə şirin arzularla yaşayır, hətta bəzən fantastik düşüncələr dünyasına dalır (Can evinə sığışmayan arzular Bir dünyada neçə dünya arzular! - S.V.). Həyatın isə dönüşləri başqadır, hər şeyi rəndələyir, istədiyini edir (Sirrini verməyir sirdaşa dünya! - S.V.).**

Biz istəyirik ki, bu gün universitet auditoriyalarında əyləşib müəllimləri dinləyən, üzləri gülən, təmiz istəklərlə yaşayan, dünya boyda arzuları olan gənclər həyatda özlərinə layiq yer tutsunlar, xoşbəxt olsunlar. Gəncliyin, xüsusən tələbə gəncliyin ürəyi dolu olur, onların arasında şeir də, nəsr əsərləri də yazanlar olur. Gənclik cəmiyyətin gələcəyi hesab olunur. Sabahın şeiri, sənəti də, var-dövləti də onların əlindədir.

Dünyanın iki qapısı var. Birinci qapı işıqlı dünyaya açılan qapıdır, gəncliyin qapısıdır, gəncliyin üzünə açılan qapıdır. Gənclik bu qapıdan girir, qarşısında üfüqlərə uzanan yollar görür, inamla bu yollarda addımlayır. Bu yollar ümumən insanlığa aiddir. Bu yollar ömür yollarıdır. Hərəni bir tərəfə aparır. Uzun-gödəkliyindən asılı olmayaraq, haradasa sona yetir. Bu yolların yolçuları bir anlığa dönüb geri baxır, ömür yollarına nəzər salır, keçdiyi həyat tarixçəsini vərəqləyir, tələbəlik illərini, tələbə yoldaşlarını yada salır. Əlini uzadır, çatmır, haraylayır, səsi çatmır. O dərdsiz-ələmsiz günlər artıq xəyal olubdur. Ürək riqqətə gəlir, gözlər dolur. Heç nə edə bilmirsən.

Bu yol - ömrün zirvə yolu çox uzundur, həm də hamar deyil, daşlı-kəsəklidir, çətindir. Sonu eyni olsa da, gedişləri eyni deyil. Biz, yaşlı müəllimlər başqa bir qapının astanasında dayanmışıq. Bu qapı sonu görünməyən, bəlkə də, sonu olmayan qaranlıq bir dünyaya açılır. Burada sənin üçün heç nə, heç şey yoxdur. Sən özün də yoxsan. Əgər xoş bir xatirə qoyub getmisənsə, o dünyada yox, bu dünyada - işıqlı dünyada xatırlanacaqsan, tələbələrin qəlbində yaşayacaqsan.

Bu bədbin notlar həyatın sərt həqiqətindən gəlsə də, həyatın gözəllikləri daha çoxdur. Allahın xəlq etdikləri arasında ən şərəflisi olan insan canlı aləmin, ümumən xilqətin ən dözümlüsü olmaqla ömür yollarında inamla irəliləyir, yaradır və yaşadır.

**Yusif SEYİDOV,**
**filologiya elmləri doktoru, kafedra müdiri**

# "Xoşladığım şeirləri oxuyanda bir dəfəyə yaddaşıma həkk olunur"

**Tələbələrə örnək olmaq, kitab oxumağa marağı daha da artırmaq məqsədilə qəzetimizin hər sayında fakültə rəhbərləri ilə kitab mövzusunda söhbət edirik. Bu dəfəki müsahibimiz isə tətbiqi-riyaziyyat və kibernetika fakültəsinin dekanı, professor Məhəmməd Mehdiyevdir**

***Məhəmməd Fərman oğlu Mehdiyev 1941-ci il oktyabrın 2-də Laçın rayonunda anadan olub. 1961-ci ildə orta məktəbi, 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) mexanika-riyaziyyat fakültəsini bitirib. 1975-ci ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyasını müdafiə edib. 1991-2002-ci illərdə BDU-nun Tətbiqi riyaziyyat kafedrasında professor vəzifəsində çalışıb.***

***18 elmlər namizədi, 2 elmlər doktoru onun rəhbərliyi altında müdafiə edib. 90 elmi əsər, 2 monoqrafiya və 1 dərsliyin müəllifidir. 2001-ci ildən AMEA-nın mexanika ixtisası üzrə müxbir üzvü seçilib.***

***2008-ci ildən tətbiqi-riyaziyyat və kibernetika fakültəsinin dekanıdır.***



**- Axırıncı dəfə nə vaxt kitab oxumusunuz?**

- Hər gün mütləq kitab mütaliəsinə zaman ayırıram. Sonuncu dəfə C.Nehrinin "Ümumdünya tarixinə baxış" adlı ikicildliyini oxumuşam.

**- Kitab seçiminizə nə təsir edir?**

- Adətən, öz şəxsi maraqlarım kitab seçimimə təsir edir.

**- Günün hansı saatlarında kitab oxuyursunuz?**

- İşimlə əlaqədar olaraq, adətən, axşamlar oxuyuram. Amma istirahət günləri fərq etmir.

**- Gündə neçə səhifə oxuya bilirsiniz?**

- Düzünü desəm, saymamışam.

**- Eyni zamanda bir neçə kitabı oxumaq vərdişiniz varmı?**

- Yorulanda həm də ixtisasıma aid olmayan kitabları oxuyuram.

**- Təkrar oxuduğunuz kitablar varmı?**

- Var. Viktor Hüqonun "Səfillər" romanını 2 dəfə oxumuşam. İlk dəfə orta məktəbdə oxuyanda, bir dəfə də 2-3 il bundan əvvəl.

**- Evinizdə təxminən neçə kitab var?**

- Evdə çoxlu kitablarım var. Amma ixtisasıma aid olan kitabların böyük hissəsini fakültənin kitabxanasına vermişəm.

**- Belə bir fikir var ki, insanın yaşı artdıqca sənədli kitablara daha çox meyil edir. Bu fikrə münasibətiniz necədir?**

- Təbii baxıram.

**- Oxuduğunuz son kitablar hansılar olub?**

- A.Hitlerin "Mənim mübarizəm", B.Obamanın özü tərəfindən qələmə alınan tərcümeyi-halı.

**- "İstəyirəm bu kitabı hamı oxusun," - deyə biləcəyiniz bir kitab varmı?**

- A.Abuşun "Bir millətin saxta yolu" kitabını hər kəsin oxumasını istərdim.

**- Sizə tanış olmayan bir kitabı əlinizə götürəndə nəyə diqqət edirsiniz?**

- O kitabın mənim maraq dairəmə uyğun olub-olmamasına baxıram.

**- Kitabın üz qabığı Sizə nə deyir?**

- Heç nə.

**- Heç kitab oğurlamısınızmı?**

- Yox. Amma tələbəlik illərində kitabı kitabxanaya vaxtında qaytarmadığım vaxtlar olub.

**- Kitabxananızda sevmədiyiniz yazarların kitabı varmı?**

- Yoxdur. Sevmədiyim yazarların kitabını niyə alım ki?

**- Həyatınızın bir kitab olmasını, ya da bir kitabda yaşamaq istərdinizmi?**

- Ümumiyyətlə, insan həyatı bir kitabdır. Öz həyatımı yazmaq istəməzdim. Amma məndən sonra kiminsə yazmasına da etiraz etmərəm.

**- Məktəbdən, universitetdən dərs kitablarınız dururmu?**

- Universitetdə təhsil alarkən oxuduğum dərs kitablarımdan var.

**- Birinci sinfə gedəndə oxumağı çox sevirdiniz, yoxsa yazmağı?**

- Hər ikisini...

**- Kitab oxuyanda qaldığınız yeri işarələmək üçün nə edirsiniz?**

- Kitabın arasına kağız parçası qoyuram.

**- Əzbərinizdə neçə şeir var?**

- Səməd Vurğunun "Vaqif" dramından bütöv bir səhnəni əzbər bilirəm. Heç vaxt şeir əzbərləməyə çalışmamışam. Ancaq məni maraqlandıran, xoşladığım şeirləri oxuyanda bir dəfəyə yaddaşıma həkk olunur.

**- Oxuduğunuz ilk kitabı xatırlayırsınızmı?**

- Yox, unutmuşam.

**- Kiməsə kitab bağışlamısınızmı?**

- Bəli, bağışlamışam.

**- Ən sevdiyiniz film kitab olsaydı, onu oxuyardınızmı?**

- Məmnuniyyətlə oxuyardım. Bu, maraqlı olar.

**- Qarabağ problemi ilə bağlı bir kitab oxumusunuzmu?**

- Əlbəttə, kifayət qədər oxumuşam.

**- Sitayiş etdiyiniz dindən başqa dinləri araşdırmısınızmı?**

- Mütəxəssis kimi yox, amma həvəskar kimi diqqətimi cəlb edən dinləri araşdırmışam.

**- Elektron kitab oxumusunuzmu?**

- Xeyr.

**- Heç zaman kitab yazmayan, amma kitab yazmasını istədiyiniz bir insan varmı?**

- Yoxdur.

**- Avtobusda çantasından kitab çıxarıb oxumağa başlayan bir adam görəndə nə düşünürsünüz?**

- Normal baxıram. Amma özüm belə mütaliəni xoşlamıram.

**- Yandırdığınız kitab olubmu?**

- Kitabı da heç yandırarlar? Heç vaxt!

**- Birnəfəsə oxuyub bitirdiyiniz kitab varmı?**

- Gəncliyimdə bədii kitablar olub ki, maraqlı gəldiyi üçün bitirənə qədər əlimdən yerə qoymamışam.

**- İnsanın həyatını dəyişdirə biləcək bir kitab tanıyırsınızmı?**

- Mənim fikrimcə, kitab insanın həyatında bəzi dəyişikliklər edə bilər, amma onu bütövlükdə dəyişə bilməz.

✍ *Aynur Qurbanqızı*

# Azərbaycanın milli parkları XXI əsrdə

**"EkoSfera" Sosial-Ekoloji Mərkəzi, Bakı Dövlət Universitetinin ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrası və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə 8-9 oktyabr 2011-ci il tarixində gənclər üçün "XXI əsrdə milli parklar: davamlı inkişafa və Azərbaycanın bioloji və etnomədəni müxtəlifliyinin mühafizəsinə qlobal dəyişikliklər kontekstində töhfə" mövzusunda elmi-praktik seminar keçirib. Tədbir 6 oktyabrda qeyd olunan Ümumdünya Yaşayış Məskənlərinin Qorunması Günü münasibətilə təşkil olunub.**

Ümumdünya Yaşayış Məskənlərinin Qorunması Günü 1979-cu ildə Berndə vəhşi fauna və floranın və təbii yaşayış məskənlərinin qorunması Konvensiyası çərçivəsində təsdiq olunub. Bu sənəd Azərbaycan Respublikası tərəfindən 28 noyabr 1999-cu il tarixində ratifikasiya edilib. Bu günün ümumdünya səviyyəsində qeyd olunmasında əsas məqsəd bəşəriyyətin diqqətini Yer kürəsi sakinlərinin yaşayış məskənləri mühitinin qorunması probleminə cəlb etməkdir.

Yaşayış məskənlərinin qorunmasının bir forması da xüsusi mühafizə olunan təbii ərazilər (XMOTƏ) şəbəkəsinin yaradılmasıdır. Hazırda ölkə ərazisinin 10,1%-i XMOTƏ-yə daxildir: bu çərçivədə 11 qoruq, 8 milli park və 24 yasaqlıq fəaliyyət göstərir.

İki günlük seminarda iştirak etmək üçün BDU-nun ekologiya və torpaqşünaslıq fakültəsinin tələbə və magistrantları və gənclərin ekoloji təşkilatlarının fəalları dəvət olunmuşdular.

Seminarın birinci günü Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yaradılmış Etno-Ekoloji Gənclər Mərkəzində keçirilib. Tələbələrin və könüllülərin milli parklarda elmi-tədqiqat fəaliyyətinə xüsusi diqqət yetirilib.

BDU-nun Bioekologiya kafedrasının müdiri, biologiya elmləri namizədi, professor Nərminə Sadıqova çıxış edərək yeni ekologiya və torpaqşünaslıq fakültəsinin fəaliyyətini təqdim edib.

Seminarı giriş sözü ilə Sosial-Ekoloci Mərkəzin rəhbəri, Bioekologiya kafedrasının dosenti Firuzə Sultanzadə açıb. O, öz çıxışında xüsusi olaraq qeyd edib ki, "ətraf mühitə insan təsirinin çoxalmasının intensivliyi ilə bağlı olan müasir proseslər və onun transformasiyası müxtəlifliyinin artması təbiətin və bütün canlıların yaşayış arealının mühafizəsi problemini ən aktual problemlərdən biri kimi qabardır. İnsanlar tərəfindən biosferin transformasiyası prosesi qaçılmaz olduğundan ayrı-ayrı landşaftların və qlobal təbii ərazilərin dəyişməsi planetin ekoloji və estetik görünüşünün xeyli dərəcədə dəyişməsinə gətirib çıxarır.

Bu baxımdan əhalini maarifləndirmək lazımdır ki, ekologiyanın gələcəyini və davamlı təsərrüfatçılığın perspektivlərini bugünkü qısamüddətli mənfəətlərinə qurban verməsinlər. Aydındır ki, bu, ekoloji təhsilin ümumi problemidir və onun həllinə xüsusi qorunan təbii ərazilər əhəmiyyətli töhfəsini verməlidir.

Təbiətin davamlı transformasiyası, ilk növbədə, milli parklar və qoruqlar kimi ekosistemlərin qorunması və istifadəsi formaları ilə bağlı olmalıdır. Milli parklar qarşısında qoyulmuş məqsəd və vəzifələr planetimizin elmi, ekoloji, iqtisadi və sosial problemlərini əks etdirir. Onların məhz bu xüsusiyyəti tamamilə yeni bir formada - insan həyat və fəaliyyətinin aktual tərəflərinin inteqrasiyasını təcəssüm edir. Qoruqlar və milli parklar Azərbaycanın ekoloji karkasının əsası olaraq qaldığından onların elmi potensialını inkişaf etdirmək, o cümlədən tədqiqat və maarifçilik fəaliyyətini davam etdirmək lazımdır. Bu məsələdə ali təhsil müəssisələrinin gənc mütəxəssisləri və tələbələri, ekoloji təşkilatlar fəal kömək edə bilərlər".

Günün birinci yarısında ekologiya fəalları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Nigar Abdurəhmanovanın, "Cənubi Qafqazda bioloci müxtəlifliyin davamlı idarə edilməsi" GİZ proqramının rəhbəri Kristian Gonnerin, WWF Bakı ofisinin direktoru Elşad Əsgərovun, Turizm İnstitutunun məsləhətçisi Gily Altmannın ekspert hesabatları və təqdimatları ilə tanış olublar.

Günün ikinci yarısında tələbələrin və "EkoSfera" Sosial-Ekoloji Mərkəzinin mütəxəssislərinin hesabatları dinlənilib. Sonra isə tələbələrdən və ekspertlərdən ibarət işçi qruplar fəaliyyətə başlayıb.

Debat zamanı gənclərin işçi qrupları qorunan ərazilərdə bioloji müxtəlifliyin, təbii, tarixi və mədəni komplekslərin mühafizəsinə yönəlmiş elmi-tədqiqat fəaliyyətinin aparılmasına xüsusi diqqət yetiriblər. Qeyd edilib ki, tələbələrin və gənc mütəxəssislərin tədqiqat işləri XMOTƏ ilə uzunmüddətli kompleks elmi araşdırmalar əsasında aparılmalıdır. Buraya geoloji-coğrafi, resurs-bioloji, tarixi-mədəni, sosial-iqtisadi, ekoloji-rekreasiv, informativ - metodiki tədqiqat növləri daxil edilməlidir.



Ekoloji maarifçilikdə, təbiətin və yaşayış məskənlərinin qorunmasının təbliğində fəallıq nümayiş etdirən gənclərin köməyi də müzakirə edilib. Gənclərin etno-ekoturizm inkişafı məsələsi xüsusi maraq kəsb edib. Bununla da müvafiq işçi grup sentyabr ayının sonunda - Ümumdünya Turizm Günündə keçirilən "Gənclərin mövqeyi: Azərbaycanda ekoloji və mədəni turizmin inkişafı. Ot üstündə disput"da gedən müzakirələrini davam etdirib.

Oktyabrın 9-da isə seminar iştirakçıları Şirvan Milli Parkı timsalında XMOTƏ-lərin işi ilə praktiki olaraq tanış olublar. Onlar ekoloji marşrutlardan biri ilə hərəkət edərkən Firuzə Sultanzadə onları bu milli parkın ərazisində təbiətin şərhi proqramı ilə tanış edib. Təbiət şərhinin əsaslarının başa düşülməsi və ziyarətçilər üçün biomüxtəlifliyin qorunmasının maraqlı izah metodu "EkoSfera" Sosial-Ekoloci Mərkəzinin ekspertləri ilə birgə öyrənilib. Bu, ətraf mühitin mühafizəsində Azərbaycan üçün yeni istiqamət və davamlı inkişafın idarəetməsi üçün vasitələrdən biridir. Təbiət şərhinin müasir anlayışı mənanın mədəni, tarixi, təbii və rekreasiya resursları ilə əlaqəsini açıqlayan bir prosesidir.

Sonda gənc seminar iştirakçıları Azərbaycanın xüsusi qorunan təbiət ərazilərinin fəaliyyətinin dəstəklənməsinə və onların təbliğinə aid yekun sənəd qəbul ediblər.

Seminarın devizi BDU-nun ekologiya və torpaqşünaslıq fakültəsinin I kurs tələbələrindən birinin bu sözləri olub: **"Biz Azərbaycan gənclərini güclənən ictimai ekoloji hərəkatı fəal dəstəkləməyə çağırırıq! Yalnız birlikdə, hər birimizin fəal fəaliyyəti ilə biz gələcək nəsilləri sağlam ətraf mühit və təbii nemətlərlə təmin edə bilərik!"**












## Həmişə olduğu kimi təbriklərimiz var...

## Təbriklər



**Niftalı Mehralı oğlu Qocayev** 1936-cı ildə Qərbi Azərbaycanın (indiki Ermənistanın) Dilican rayonunda anadan olub. 1953-cü ildə orta məktəbi qızıl medalla, 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) fizika fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1963-cü ildə namizədlik, 2003-cü ildə doktorluq dissertasiyalarını müdafiə edib.

Professor N.Qocayevin elmi-pedaqoji fəaliyyəti Bakı Dövlət Universiteti ilə bağlı olub. O, BDU-nun Optika və molekulyar fizika kafedrasında assistent vəzifəsindən professor vəzifəsinə kimi yüksəlib, 16 il həmin kafedranın müdiri vəzifəsində çalışıb. 53 illik elmi-pedaqoji fəaliyyəti müddətində BDU-da, Türkiyənin Atatürk və İstanbul universitetlərində ümumi fizika kursundan yüksək səviyyəli mühazirələr oxuyub.

Professor N.Qocayev bir sıra mötəbər elmi jurnallarda dərc olunmuş 300-dən çox məqalənin, 16 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir. Onun rəhbərliyi ilə 30-a yaxın elmlər doktoru və elmlər namizədi dissertasiya işləri müdafiə olunub. Alimin Moskvada "Vışşaya şkola" nəşriyyatı tərəfindən dərc olunmuş 26 çap vərəqi həcmindəki "Optika" dərsliyi hazırda MDB ölkələrinin ali məktəblərində tədris olunur. Alimin Türkiyə universitetləri tələbələri üçün də nəşr etdirdiyi 4 dərslik Türkiyə tələbələri tərəfindən istifadə olunur.

Professor N.Qocayev uzun müddət BDU Elmi Şurasının üzvü və fakültə Müdafiə Şurasının sədr müavini olub, hazırda fakültə Elmi Şurasının və fakültədə fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür.

2011-ci ildə Optika və molekulyar fizika kafedrasının professoru, Fizika Problemləri İnstitutunun şöbə müdiri, fizika-riyaziyyat elmləri doktoru N.Qocayevin anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 ili tamam olur



**Təhminə Zəkəriyyə qızı Rüstəmova** 1927-ci ildə Şəkidə anadan olub. 1944-cü ildə Şəkidə 7 saylı orta məktəbi, 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) şərqşünaslıq fakültəsinin fars şöbəsini bitirib. 1954-cü ildə namizədlik, 1990-cı ildə "Feli sifət və feli sifət tərkiblərinin qarşılıqlı tipoloji planda leksik-qrammatik xüsusiyyətləri problemi (fars və Azərbaycan dilləri materialları əsasında)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib.

O, 1954-1964-cü illərdə şərqşünaslıq fakültəsinin Yaxın və Orta Şərq dilləri kafedrasında baş müəllim kimi çalışıb, 1990-cı ilə qədər İran filologiyası kafedrasının dosenti olub, 1990-cı ildən isə həmin kafedranın professorudur. Alim müxtəlif illərdə bir sıra beynəlxalq seminar, simpozium və konfransların iştirakçısı olub. 20 dərsliyin və dərs vəsaitinin, o cümlədən xaricdə-İranda çap olunmuş 2 monoqrafiya və dərsliyin, 5 elmi məqalənin, Əfqanıstanın sifarişi ilə 1986-cı ildə çap olunmuş 1 əlifba dərsliyinin (Bakı, "Yazıçı" nəşriyyatı), 150-dən artıq elmi məqalənin müəllifidir. Alim fars dili, fars dilçiliyi, fars və Azərbaycan dillərinin müqayisəli tədqiqi, qismən Azərbaycan və ərəb dili sahəsində tədqiqatlar aparır.

O, "Tərəqqi medalı", əməkdar müəllim adına layiq görülmüş, Təhsil nazirliyinin və universitetin bir sıra fəxri fərmanları ilə təltif edilmişdir.

2011-ci ildə professor Təhminə Rüstəmovanın anadan olmasının 85, elmi-pedaqoji fəaliyyətinin 65 ili tamam olur.

* * *



**Gülər Mövsüm qızı Sənani** 1941-ci ildə Bakıda, sevimli sənətkarımız Mövsüm Sənaninin ailəsində dünyaya gəlib. 1959-cu ildə 189 saylı orta məktəbi, 1956-cı ildə M.Maqomayev adına Filarmoniyanın nəzdində fəaliyyət göstərən musiqi məktəbinin fortopiano şöbəsini, 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) filologiya fakültəsini bitirib. 1965-1969-cu illərdə Azərbaycan Elmlər Akademiyasının fundamental kitabxanasında xüsusi redaktor vəzifəsində çalışıb. 1978-ci ildə müsabiqə yolu ilə universitetin xarici tələbələr üzrə Rus dili kafedrasına müəllim vəzifəsinə qəbul olub. 1986-cı ildən həmin kafedranın baş müəllimidir. Bir sıra dəyərli dərslik və dərs vəsaitlərinin müəllifidir. Rus dili, rus filologiyası, rus dilinin tədrisi metodikası onun tədqiqat sahəsidir. O, dəfələrlə beynəlxalq seminar, simpozium və konfransların iştirakçısı olub.

2011-ci ildə Gülər xanım Sənaninin anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 ili tamam olur.

* * *



**Cəfər Müseyib oğlu Quluzadə** 1937-ci ildə Tovuz rayonunun Xatınlı kəndində anadan olub. 1961-ci ildə Leninqradda (indiki Sankt-Peterburqda) Dövlət Universitetini bitirib,

Elmi Şuranın qərarı ilə aspiranturada saxlanılıb. 1968-ci ildən BDU-da çalışır. 1997-ci ildən Astrofizika kafedrasının müdiridir. 1966-cı ildə namizədlik, 2003-cü ildə doktorluq dissertasiyasını müdafiə edib. 1992-1994-cü illərdə Türkiyəyə dəvət olunub. Orada İstanbul Universitetində Spektroskopiya kursunun tədrisini təşkil edib. Günəş fizikası sahəsində çalışır. 12 dərs vəsaiti, dərslik və monoqrafiyanın, 28 dərs proqramının, fiziki astronomiya ixtisasının tədris planının, 200-ə yaxın elmi məqalənin və astrofizika üzrə bir çox elmi-tədqiqat işinin müəllifidir. O, həmçinin "Ana ürəyi", "Torpaq, uğrunda ölən varsa, vətəndir", "Azəri türk bayrağı" adlı vətənpərvəlik mövzusunda bədii-publisistik kitabların müəllifidir.

Professor C.Qulizadə kosmonavtika üzrə gənc kadrların yetişdirilməsində və kosmos elminin inkişafındakı xidmətlərinə görə 1991-ci ildə SSRİ Kosmonavtika Federasiyanın diplomuna layiq görülüb, 2001-ci ildən Avropa Astronomiya cəmiyyətinin üzvüdür. 2009-cu ildə əməkdar müəllim adına layiq görülüb. O, universitetdə fəaliyyət göstərən D 02.012 Dissertasiya Şurasının, Azərbaycan Respublikası Təhsil Nazirliyinin fizika üzrə elmi-metodik şurasının üzvüdür.

2011-ci ildə professor Cəfər Quluzadənin anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 ili tamam olur.

**Solmaz Babaşova**

***"Bakı Universiteti" qəzetinin kollektivi adından biz də yubilyarları təbrik edir, onlara can-sağlığı, elmi-pedoqoji fəaliyyətlərində uğurlar arzulayırıq.***

## TEC-nin yeni dərs ilində birinci seminarı



**Oktyabrın 13-də biologiya fakültəsində TEC-nin yeni dərs ilində birinci seminarı keçirildi.**

Seminarda biologiya fakültəsinin Onurğalılar zoologiyası kafedrasının laborantı Səbinə Hüseynova çıxış etdi. Çıxış Çexiyanın Karl Universiteti ilə BDU-nun biologiya fakültəsi arasında yaradılmış əlaqələrə həsr edilmişdi. Seminarda iyul ayında Karl Universitetinin əməkdaşlarının Bakıya gəlişi və onların burada apardığı tədqiqatlar haqqında, eyni zamanda avqust ayında Bakı Dövlət Universitetinin biologiya fakültəsinin əməkdaşlarının Çexiyaya səfəri və s. haqqında məlumatlar məruzə edildi. Həmçinin Karl Universitetinin strukturu, ən əsası, təbiət elmləri fakültəsi və bu fakültənin nailiyyətləri haqqında da geniş məlumat verildi.

Seminarda fakültənin dekan müavinləri, kafedra müdirləri, müəllim heyəti, laborantlar və tələbələr iştirak edirdilər. Sonda biologiya fakültəsinin dekanı prof. A.Ə.Quliyev Çexiyanın Karl Universiteti ilə Bakı Dövlət Universitetinin biologiya fakültəsi arasında bağlanılmış memorandum haqqında ətraflı danışdı və iştirakçıları maraqlandıran sualları cavablandırdı.

**Tamella Müslova**

# Müstəqillik Günün mübarək, Vətən!




Artıq 20-ci ildir ki, müstəqil Azərbaycanımız dövlət müstəqilliyi gününü qeyd edir. Hələ 1918-ci ilin 28 mayında bizlər Şərqdə ilk demokratik dövləti yaradan xalqın nümayəndələri kimi adımızı tarixə qızıl hərflərlə yazdırdıq. 70 illik əsarətdən sonra isə Azərbaycan xalqı özünün əbədi müstəqil dövlətini - Azərbaycan Respublikasını yaratdı.

Hələ SSRİ-nin süqutu ərəfəsində meydanlara toplaşan milyondan artıq insan sovet əsarətindən qurtulmaq və müstəqil dövlətçiliyimizi bərpa etmək uğrunda mübarizəyə qoşulmuşdu. Məhz xalqımızın azadlıq uğrunda mübarizəsinə görə 1989-cu ildə Almaniyanın dünyaca məşhur "Şpigel" jurnalı Azərbaycan xalqını "İlin xalqı" elan etmişdi. Azərbaycan xalqının həmin azadlıq mübarizəsi bizlərə artıq 20-ci ildönümünü qeyd etdiyimiz müstəqilliyimizi qazandırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadə hələ 1953-cü ildə radio vasitəsilə xalqımıza müraciətində belə demişdir: "Şübhəsizdir ki, bir gün həqiqət parıldayacaq, azadlıq əsasını, Birləşmiş Millətlər prinsipini və insan haqlarını tutan tərəf qalib gələcəkdir. Bu qalibiyyət günəşi qızıl istibdad zülmü altında inləyən əziz vətənimizdə 1918-in 28 mayısı kimi yenidən doğacaqdır".

Həqiqətən, həmin qalibiyyət günəşi yenidən parladı, qanımız bahasına əldə etdiyimiz müstəqilliyimizi yenidən qazandıq. 1991-ci ilin 18 oktyabrında qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə yenidən müstəqil dövlətçiliyimiz bərpa olundu və Azərbaycan xalqı ümumxalq səsverməsində yekdilliklə Konstitusiya Aktına tərəfdar olduğunu bildirdi. Konstitusiya Aktı müstəqil Azərbaycan dövlətini 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan edirdi.

Həmin tarixdən keçən 20 il ərzində müstəqil Azərbaycanımız özünün beynəlxalq aləmdə nüfuzunu artırdı və sürətlə inkişaf edən ölkələr sırasına daxil oldu.

Hər bir azərbaycanlını Müstəqillik Günü münasibətilə təbrik edir, bütün xalqımıza uğurlar arzulayıram. Tanrı bizi qorusun!

Sən bizimsən, bizimsən, durduqca bədəndə can,
Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!

**Mirhəsən Cabbarov,**
*beynəlxalq hüquq fakültəsinin IV kurs tələbəsi*

# Prezident təqaüdçüsü



**Hər il olduğu kimi, bu il də ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq Prezident təqaüdçüsü adını qazanmış bəzi gənclər Bakı Dövlət Universitetini seçiblər. "Bakı Universiteti" qəzeti həmin tələbələri yaxından tanıtmaq məqsədilə onlar haqqında yazını təqdim edir:**

Musalı Samir İsmət oğlu 1994-cü ildə Bakı şəhəri Nizami rayonunda anadan olub. 2000-ci ildə Suraxanı rayonundakı 76 №-li orta məktəbin 1-ci sinfinə daxil olub. Orta məktəbi "əla" qiymətlərlə bitirən Samir eyni zamanda məktəbin bir sıra ictimai işlərində də fəallıq göstərib. Dəfələrlə olimpiadalarda, müsabiqələrdə iştirak edərək mükafatlara layiq görülüb. O, 2011-ci il ali məktəblərə qəbul imtahanları zamanı I ixtisas qrupu üzrə yüksək bilik nümayiş etdirərək 690 bal toplayıb. Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat və kibernetika fakültəsinə daxil olan Samir universiteti də "əla" qiymətlərlə bitirmək və bacarıqlı bir riyaziyyatçı kimi yetişmək arzusundadır.

Bu günlərdə redaksiyamızın qonağı olan Samir öz sevincini, arzu və istəklərini bizimlə də bölüşdü:

- "Riyaziyyatçı olmaq mənim çoxdankı arzum idi. Sevdiyim bir ixtisasa yiyələndiyim üçün çox sevincliyəm. Düzü, mən özümə inanırdım. Bilirdim ki, qəbul imtahanında yüksək bal toplayacağam. Çünki dərslərimə, hazırlığıma çox ciddi yanaşırdım. Orta məktəb dərslərimi çox yaxşı oxuyurdum, bütün qiymətlərim "5" olurdu. Ancaq buna baxmayaraq, biliyimi daha da möhkəmləndirmək üçün kurslara da gedirdim. Sınaqlarda da yüksək bal toplayırdım. Bu uğuruma görə mən, təbii ki, ilk növbədə, valideynlərimə borcluyam. Qəbul imtahanlarına hazırlaşarkən valideynlərim mənə çox böyük mənəvi dəstək olublar. Digər tərəfdən, bu uğuru qazanmağımda böyük pay sahibi olan və mənə valideyn qayğısı ilə yanaşan müəllilərimə öz minnətdarlığımı bildirirəm. Çalışacağam ki, Bakı Dövlət Universitetində də dərslərimi yaxşı oxuyum, biliyimi daha da mükəmməlləşdirim və Vətənimə, xalqıma layiqli bir övlad kimi yetişim. Həmçinin gələcəkdə təhsilimi magistraturada davam etdirmək arzum da var. Eyni zamanda universitetin elmi, ictimai işlərində də yaxından iştirak etmək istəyirəm.

# RƏSSAMLIQ duyğularım...



Uşaqlıqda böyük sevgi ilə məşğul olduğum kiçik yaradıcılıq həvəsim baş qaldırıb içimdə: molberti qu- raşdırıb ağ kətan üzərində fırça ilə işlə- Düşünürəm, nə çəkim? Çəkilməz dərdləri fırça mək, ya da sadəcə rəsm çəkmək. Düşünürəm... ağ göyərçin çəkib sülhsevərliyimi göstə- necə çəksin? Mən Pablo Pikasso deyiləm ki, ağ göyərçin çəkib sülhsevərliyimi göstərim. Bacarıqsız rəssamam. Çəkdiyim rəsmləri boyamaq üçün rənglərdən istifadə etməyəcək qədər kasıbam. Xoşlamıram rəngləməyi. Bəlkə də, istədiyim rəngləri tapa bilmirəm. Sadə karandaşla ağ səhifələrdə cızıram. Ağ, qırmızı, yaşıl, qara, sarı, mavi... - qutuda quruyub qalmış rənglər, mənə lazım deyilsiniz. Çəkmək istəyirəm. Yalanı, xəyanəti, ölümsüzlüyü... Rəngsiz filmlər kimi xatırladığım dünəni, qum saatından qum kimi sakit axan həyatı, intihara cəhd edənin qarışıq fikirlərini, həkimdən: "Ömrününün sonuna az qalıb" - eşidən xəstənin son ümidlərini... Düşünün, rənglər! Bu əsərdə hərəniz öz yerinizi tapın. Rənglər, qanadlanan uşaqlıq hisslərimi aldadın, mən də çəkim. "Sarı günəşi, mavi səmanı, yaşıl otları... çək," - deyin.

Bağışla məni, keçmiş həvəsim, uşaqlıq hisslərim, rəssamlıq duyğularım.

**Leyla Məhərrəmova,**
*Jurnalistika fakültəsinin III kurs tələbəsi*

# BAĞIŞLAMAQ və onun SAĞLAMLIĞA faydası



Quranda tövsiyə edilən gözəl əxlaqi xüsusiyyətlərdən biri də əfv etmək və bağışlamaqdır.

"Əfv edib, xoş qəbul etsinlər! Məgər siz Allahın sizi bağışlamağını istəmirsiniz? Allah bağışlayandır, rəhm edəndir." ("Nur" surəsi).

Bəzi adamlar qarşılarındakı adamı bagışladıqlarını desələr də, həmin adamların ürəyinin kin-küdurətdən xilas olması uzun müddət davam edir. Onların davranışı, ümumiyyətlə, bu xislətlərini əks etdirəcək şəkildə olur. Möminlər isə səmimi şəkildə bağışlayırlar. Bağışlamaq üçün hər hansı bir səhvin böyüklüyünə və ya kiçikliyinə fərq qoymurlar. Baş verən hər hadisənin Allahın nəzarətində və bir tale daxilində cərəyan etdiyini bilən möminlər bu cür hadisə qarşısında təvəkküllə hərəkət edir və əsəbi hallara düşmürlər.

Amerikalı alimlərin bir müddət əvvəl apardığı tədqiqatların nəticələri bağışlamağı bacaran insanların başqalarına nisbətən həm ruhən, həm də fiziki cəhətdən daha sağlam olduğunu göstərdi.

Stenford Universitetinin (ABŞ) alimi Frederik Luskin və onun əməkdaşları San-Fransisko (ABŞ) şəhərində yaşayan 259 nəfər üzərində tədqiqat aparmışlar. Alimlər təcrübədə iştirak üçün razılıq verən həmin adamları 6 dəfə saat yarımlıq görüşlərə dəvət etmişlər. Onlar bu söhbətlər zamanı həmin adamlara bağışlamağı öyrətməyi qarşılarına məqsəd qoymuşdular.

Stenford Universitetində "Rəhbərlik və sağlamlıq psixologiyası" sahəsində doktorluq dissertasiyası müdafiə edən Frederik Luskin "Yaxşılıq üçün bağışlayın" ("Forgive for Good") adlı kitabının təqdimatında bağışlamaq haqqında: "Bu, sağlamlıq və xoşbəxtlik üçün sübut olunmuş bir reseptdir" ifadəsini işlətmişdir.

Digər tərəfdən, 1500 adamı əhatə edən bir araşdırmada dininə bağlı olan insanlarda stress, depressiya və əqli xəstəliklərin daha az olduğu da müşahidə edilmişdir. Tədqiqat aparan Dr. Herbert Benson bunu dinlərin bağışlamaq hissini təlqin etməsi ilə əlaqələndirir:

"Dinlər insanlara başqalarını bağışlamağı tövsiyə edir. Buna görə də dini inancı olanlar çətinliklərini ürəyində saxlamır və həyata daha asan uyğunlaşırlar ki, bu da onların depressiya və stress kimi narahatlıqla daha az üzləşməsini təmin edir".

"The Times"da dərc olunan "Əsəb infarkt riskini artırır" sərlövhəli məqalədə tez əsəbiləşməyin infarkta aparan qısa bir yol olduğu, hər şeyə əsəblə reaksiya verən adamların ürək xəstəliklərinə 3, erkən infarkta isə 5 dəfə çox məruz qalmaq riski ilə yaşadığı bildirilir".

Baltimor şəhərindəki (Merilend ştatı, ABŞ) Con Hopkins Universitetinin alimləri müəyyən ediblər ki, tez əsəbiləşən insanların ailə üzvləri də ürək xəstəlikləri keçirmək riski ilə üzləşirlər.

Aparılan bütün tədqiqatlar göstərir ki, əsəbiləşmək insanın, əsasən, sağlamlığına ciddi zərər vuran bir ruh halıdır. Bağışlamaq isə insanın öhdəsindən çətin gələ bildiyi, lakin əsəbiləşməyin bütün mənfi nəticələrini aradan qaldıran, həm fiziki, həm də ruhi cəhətdən sağlam həyat yaşamağa kömək edən gözəl bir davranış tərzi, üstün əxlaqi xüsusiyyətdir. Əlbəttə, bağışlamaq sağlam qalmağa səbəb olan davranışlardan biri və hamının yaşamalı olduğu müsbət bir xüsusiyyətdir.

Ancaq bağışlamada əsl məqsəd hər şeydə olduğu kimi, Allahın rizasını qazanmağa münasib olan, əxlaqi qanunlara riayət olunan yaşam tərzi olmalıdır.

**Nəbibəyli Nərmin,**
***beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi, I kurs***

# QOXULAR BARƏDƏ BİLMƏDİKLƏRİMİZ



**Böyük Yaradanın insana ehsan etdiyi qabiliyyətlərdən biri də duyğu orqanlarıdır**

5 hissdən təşkil olunan bu qabiliyyətlərin ən əsaslarından biri isə qoxubilmə qabiliyyətimizdir.

**Ətrafımızda müxtəlif rayihədə qoxular var.**

Əlbəttə, bəzilərimiz üçün iybilmə qabilliyyəti görmə və eşitmənin yanında o qədər də əhəmiyyətli deyil, lakin düşünürəm ki, bu barədə bəzi faktları öyrənmək maraqlı olardı.

1. Erkək "Astias selene" kəpənəyi dişi həmcinsinin iyini 11 kilometrdən duya bilir.
2. İtin burnunda 230 milyon iybilmə hüceyrəsi var. İnsanda isə bu göstərici 20 dəfə az, yəni 10-11 milyondur.

3. Bununla belə, itlər tamamilə qoxusu olmayan əşyanı tapmaqda acizdirlər. Bu xüsusiyyəti bilən çexiyalılar yeganə bomba istehsalçıları idilər ki, partlayıcı qurğuya iyli maddə əlavə eləmirdilər. Bu da dünya ictimaiyyətinin terroristlərlə mübarizədə işini xeyli çətinləşdirirdi.

4. İnsanlar üçün təzə bişmiş çörəyin, yeni biçilmiş otun və qəhvənin ətri ən sevilən qoxular sırasındadır. Kökə və qəhvənin ətri nəinki iştahı açır, həmçinin insanda nəsə almaq hissini oyadır. Bu səbəbdən bir çox mağazalarda qəhvə və yeni bişirmiş şirniyyat ətri gəlir.

5. Bir çox heyvanların özlərinin sevdikləri ətir var. Məsələn, itlər razyananın qoxusunu, pişiklər pişikotu ("valeryanka") və nanənin, şirlər isə gözəl müasir ətirlərin qoxusunu sevirlər. Ən maraqlısı isə dəvədir - o, tütünün tüstüsünü xoşlayırlar.

6. Fransa parfumeriya bankının kataloqunda 8000 adda ətirin adı var. Müasir ətirlər 300 müxtəlif kompanetlərdən təşkil oluna bilər. Ətirlərin yaradılması üçün 6000 müxtəlif xammaldan istifadə olunur.

7. Səs-küylü sivilizasiyada yaşayan şəhərli təqribən 70 faiz ətri hiss etmir. Lakin vəhşi təbiətdə yaşayan afrikalı cəngəllikdən keçərkən bir neçə saat əvvəl buranı tərk etmiş dostunun ətrini duya bilər.

***Emilya***

# ETİBARSIZDIR

Hüquq fakültəsinin III kurs tələbəsi Musayev Tural Səmid oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin IV kurs tələbəsi Nəbiyev Elvin Ramiz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Jurnalistika fakültəsinin IV kurs tələbəsi Nəbiyev Elşən Elxan oğluna məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

* * *

Fizika fakültəsinin IV kurs tələbəsi Kərimbəyli Royal Tofiq oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Kimya fakültəsinin III kurs tələbəsi Mənsimov Yusif Firudin oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Sosial Elmlər və psixologiya fakültəsinin III kurs tələbəsi Novruzov Orxan Namiq oğluna məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

* * *

Sosial elmlər və psixologiya fakültəsinin III kurs tələbəsi Abdullayev Ayxan Rafael oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Biologiya fakültəsinin II kurs tələbəsi Məmmədova Aygül Mayıl qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin IV kurs tələbəsi Balayeva Aytən Hakim qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin III kurs tələbəsi Məmmədov Adil Sərvər oğlunaməxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

* * *

Tətbiqi-riyaziyyat və kibernetika fakültəsinin II kurs tələbəsi Həsənova Vəfa Məhyəddin qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Biologiya fakültəsinin IV kurs tələbəsi Həsənova Şəhla Eynur qızına na məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Mexanika-riyaziyyat fakültəsinin IV kurs tələbəsi Yusifova Nərmin Yunis qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Tarix fakültəsinin IV kurs tələbəsi Yaqubov Ağacavid Ağacəfər oğluna məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

* * *

Tarix fakültəsinin III kurs tələbəsi Əliyev Tural Zabil oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Şərqşünaslıq fakültəsinin I kurs tələbəsi Məmmədli Toğrul Vidadi oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Şərqşünaslıq fakültəsinin I kurs tələbəsi İbrahimli Saleh İdrak oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Tarix fakültəsinin IV kurs tələbəsi Kərəkməzli Natiq Namiq oğluna məxsus qiymət kitabçasi itdiyi üçün etibarsız sayılır.

* * *

Mexanika-riyaziyyat fakültəsinin II kurs tələbəsi Abasov Miryusif Miralı oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Coğrafiya fakültəsinin II kurs tələbəsi Məmmədov Hüseyn Rəsul oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Sosial elmlər və psixologiya fakültəsinin IV kurs tələbəsi İsmayılov Tural Etibar oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Hüquq fakültəsinin II kurs tələbəsi Kamilli Kamil Adil oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

№ 12 (1420) 24 oktyabr 2011-ci il

SON SƏHİFƏ

## Əməkdaşların və tələbələrin nəzərinə!

***Rektor, akademik Abel Məhərrəmova suallarınızı sual@bsu.az elektron ünvanına göndərə bilərsiniz. Cavablarınız bsu.edu.az səhifəsində yerləşdiriləcəkdir.***

***

***Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.***

# BDU kitabxanası - yeni nəşrlər

**"Azərbaycan mətbuat tarixi antologiyası"**




*"Azərbaycan mətbuat tarixi antologiyası" kitabının II cildi nəşr olunub. Kitabı nəşrə hazırlayanlar və elmi redaktorları **Şamil Vəliyev** və **Nəsiman Yaqublu**dur.*

Kitabda Azərbaycan mətbuatı və jurnalistikasının inkişaf tarixini və onun elmi-nəzəri prinsiplərini əks etdirən materiallar toplanıb. Azərbaycanın ictimai-mədəni həyatı, sosial-siyasi təkamülü, demokratikləşmə, söz azadlığı, vətəndaş cəmiyyəti və müstəqil dövlət quruculuğu uğrunda mübarizəsində əsaslı rol oynayan "dördüncü hakimiyyət"in - mətbuat və jurnalistikanın təşəkkülü və inkişafını işıqlandıran antologiya media işçiləri, tədqiqatçı alimlər, bakalavr, magistr və doktorontlar, habelə ictimai fənlərlə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

**"Başqa dilim, elim var mənim"**




*Filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədlinin transliterasiya və tərtib etdiyi "Başqa dilim, elim var mənim" kitabı işıq üzü görüb.* Kitabda daha çox tarixçi və türkoloq kimi məşhur olan Məhəmmədtağı Zehtabi oxuculara şair kimi təqdim olunur. Ədibin vətəndən ayrı düşdüyü, mühacirətdə yaşadığı illərdə qələmə aldığı şeirlər bu nəşrdə təqdim edilib. M.Zehtabinin bu şeirləri şairin Aşqabad, Bakı, Berlin, Bağdad şəhərlərində yaşayıb fəaliyyət göstərdiyi 1947-1978-ci illərdə yazılıb.

Kitabda şeirlər tarixi xronologiya əsasında sıralanıb. Ön söz və çətin anlaşılan sözlərin izah və şərhi oxucuya bələdçilik edir.

**Aynur Qurbanqızı**

## İbrətamiz hekayə

***Pislik etməklə keçmişdi ömrü. Yaxşılıq nədir, bilməmişdi. İndi cəhənnəmin astanasında idi. Qapıda onu mələk qarşıladı. Mələk:***



- Əgər həyatda bircə dəfə də olsun, yaxşılıq etmisənsə, sən cəhənnəmə düşməyəcəksən, - dedi.

Adam uzun müddət fikirləşdikdən sonra meşədə gördüyü hörümçəyi xatırladı. Bir dəfə meşə ilə gedərkən bir hörümçək toru ilə qarşılaşmış, toru dağıtmamaq üçün yolunu dəyişmişdi. Bu hadisəni həyəcanla mələyə danışdı.

Mələk gülümsədi və əllərini bir-birinə vurdu. Bu vaxt göydən bir hörümçək toru endi. Adam artıq bu tordan tutub cənnətə düşə bilərdi. Sevinclə tora yaxınlaşdı. Ancaq yanındakı adamlar da tordan tutmaq, onunla birlikdə cəhənnəmdən çıxmaq istəyirdilər. Adam torun bu qədər adama davam gətirə bilməyəcəyini düşündü və qorxu içərisində onları itələməyə başladı. Bu vaxt tor, doğrudan da, qırıldı. Hamısı bir yerdə cəhənnəmə düşdülər.

- Heyif, - dedi mələk. - Həyatda etdiyin yeganə yaxşılığı da öz əlinlə məhv etdin. Halbuki o adamlara tordan tutmağa imkan versəydin, hamının xilas olduğunu görəcəkdin.

## Özfəaliyyətimizin fəalları

**Sona Güləhmədova: «Böyük səhnələrdə çıxış etmək, gurultulu alqışlarla qarşılanmaq istəmişəm..**

Sona Güləhmədova Nəriman qızı 1984-cü ildə Neftçala rayonunda dünyaya gəlib. 1991-ci ildə Neftçala rayonu 1 №-li orta məktəbin birinci sinfinə daxil olub. 2001-ci ildə orta məktəbi bitirən Sona Bakı Dövlət Universitetinin fizika fakültəsinə qəbul olub.

O, hələ orta məktəb illərindən musiqiyə maraq göstərib və 1993-cü ildə Neftçala rayonunda fəaliyyət göstərən musiqi məktəbinin fortepiano sinfinə daxil olub. O, həmçinin məktəbin xor kollektivində solist kimi də çıxış edib. Sona musiqiyə olan marağını və istedadını tələbəlik illərində də universitetin nəzdindəki özfəaliyyət dərnəyində davam etdirib.

2006-cı ildə BDU-nu bitirən Sona daha sonra təyinatla Neftçala rayonu 1 №-li orta məktəbdə fizika müəllimi işləyib və bir illik pedaqoji fəaliyyətindən sonra BDU-nun Yarımkeçiricilər fizikası kafedrasının magistr pilləsinə daxil olub. Magistraturanı fərqlənmə diplomu və fəxri fərmanla bitirən Sona hal-hazırda BDU-nun Astrofizika kafedrasında çalışır.

Sona Güləhmədova hələ tələbəlik illərindən universitetin seçilən tələbələrindən olub, ictimai işlərdə də yaxından iştirak edib. O, 2010-cu ildə İctimai Televiziyanın təşkilatçılığı ilə keçirilən "Nəğməli Bakı" müsabiqəsinin finalçısı olub. Həmçinin universitetdə keçirilən festivallarda, gənc istedadların ali məktəblərarası yarışmalarında dəfələrlə iştirak edib, diplom və mükafatlara layiq görülüb.

Bu yaxınlarda redaksiyamızın qonağı olan Sona Güləhmədova öz fikirlərini bizlərlə də bölüşdü: "Mənim uşaqlıqdan iki arzum olub. İstəmişəm ki, həmişə diqqət mərkəzində olum, özümü həmişə ön sıralarda görmüşəm. Böyük səhnələrdə çıxış etmək, gurultulu alqışlarla qarşılanmaq istəmişəm. Deyim ki, bunların çoxuna artıq nail olmuşam. Bununla yanaşı, ciddi iş xanımı olmağı, ciddi sənətlərlə məşğul olmağı, böyük insanlarla, professorlarla, dünyagörmüş mütəxəssislərlə çiyin-çiyinə işləməyi arzulamışam. BDU-da işləmək də mənim uşaqlıq arzum olub və buna görə də musiqi fəaliyyətimlə elmi fəaliyyətimi paralel aparmağa çalışıram. Ancaq əsas məqsədim elmi yaradıcılığımı davam etdirmək, gələcəkdə müəllim kimi fəaliyyət göstərməkdir. Buna görə də mən artıq elmi məqalələrlə tez-tez çıxışlar edir, bu sahədə fəaliyyətimi genişləndirmək istəyirəm".



**Kəramət Böyükçöl**

# ALÇALDICI SUALLARA MƏHŞURLARIN CAVABI

Məhşurları alçaltmaq və ya aldatmaq istəyənlərə verdikləri cavablar çox yerində olub. Məsələn biri Mehmet Akif Ərsoydan soruşur "Baytarsınız? - cavabında deyir ki, bəli baytaram haranız ağrıyır

Qulaqlarının böyüklüyü ilə məşhur olan Qalileyə rəqiblərindən biri belə deyir:

"Qulaqlarınız, bir insan üçün bir az böyük deyilmi?"

Qaliley: "Doğrudur", mənim qulaqlarım bir insan üçün bir az böyükdür amma, səninkilər bir eşşək üçün çox kiçikdir?"

Yavuz Sultan Səlim səfərlərini gizli saxlayarmış. Vəziri də inadla soruşarmış ki, hara səfərə gedirsiniz deyə.

Yavuz: - Sən sirr saxlamağı bacarırsanmı?

Vəzir: - Bəli ağam, bacarıram.

Yavuz: - Mən də.

Sokrat bir gün gedərkən, bir nəfərin keçə biləcəyi qədər məsafə olan bir yerdə dövrün məhşurlarında biriylə qarşı-qarşıya gəlir və ikisi də dayanır.

Qısa bir müddət baxışdıqdan sonra:

Məhşur: "Mən sənin kimi murdar bir yazığa yol verməm!"

Sokrat: "Mən verərəm..."

Napoleon döyüşdə İspaniyanı məğlub edir. İspaniya kralı, "siz ancaq pul və mal üçün döyüşürsünüz, biz isə namusumuz və şərəfimiz üçün döyüşürük",- deyib.

Napoleon: - Bəli insanın nəyi əskikdirsə onun üçün döyüşür.

***Rübab Allahverdiyeva***

## Ötən ayın ən çox satılan kitabları hansılardır?



"***Əli və Nino***" kitab şəbəkəsində sentyabr ayında ən çox satılan kitabların siyahısını təqdim edib.

Mağazanın bu aylıq satış statistikasına nəzər salanda dünya ədəbiyyatının üstünlük təşkil etdiyini görürük.

Beləliklə, sentyabrda ən çox satılan 10 kitab:

1. ***Frederik Beqbeder "Məhəbbət üç il yaşayır"***
2. ***Qurban Səid "Əli və Nino"***
3. ***Qabriel Qarsia Markes "100 ilin tənhalığı"***
4. ***Xalid Hüseyni "Çərpələng uçuran"***
5. ***Antuan Sent-Ekzüperi "Balaca şahzadə"***
6. ***Rudolf Erix Raspe "Baron Münhauzenin sərgüzəştləri"***
7. ***Çingiz Abdullayev "İnsan ovu"***
8. ***Paulo Coelho "Kimyagər"***
9. ***Çingiz Abdullayev "Mavi mələklər"***
10. ***Cohn Coleman "Komitet 300"***

***Elmin***

## ƏSNƏMƏK BEYNİ SƏRİNLƏŞDİRİR



***İnsanın özünü key hiss etməsinə səbəb olan əsnəmənin beyni sərinləşdirdiyi məlum olub. ABŞ-ın Princeton Universitetində aparılan araşdırmada təcrübə aparılan şəxslərə əsnəyən insan görüntüləri göstərilib. Beləliklə, əsnəyənləri müşahidə edən araşdırmaçılar, əsnəmənin beynin istiliyini nəzarətdə saxladığı və beyni sərinləşdirdiyini aşkarlayıblar.***

**Baş redaktor:** Anzulə ƏMİROVA

**Redaksiya heyəti:** Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:** Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 439-03-64, 439-04-78
e-mail: BU_press@bsu.az

**Sifariş: 162**
**Tiraj: 2000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır